# Anna Axmatovaya yazılan şeirlər silsiləsi



*Marina SVETAYEVA*
*(1892 - 1941) Rusiya*

**1.**

...və köçəriyə  mədh,
 sənə bu aydınlıqlar olur

Kədərdən doğulan ilham pərisi
ondan daha gözəl söylə varmı heç!
Bəyaz gecələrin başı şallısı -
qara çovğun təhər nəhəng birisi
qənim kəsilibdi çöllərimizə
bir daha geriyə qayıdarmı heç!

Çox uzaq düşmüşük bu da bir günah
səni bizimkilər bir öncül sanır -
Anna Axmatova! - Nə böyük bir ah
adsız sonsuzluğa qədər uzanır...

Biz taclı, çələngliyik
bir sıra nəfəriyik
yuxarıda göy üzünü,
burda torpağı döyürük.
Və kimlər ki
sənin acı taleyinlə yaralıdı
artıq ölümün taxtında ölməzlər kimi
səni öyürük...

Və mən bu zəng qüllələrin
sənə hədiyyə etdim -
Axmatova! - al, bax!
gör, ürəyim səndən yana necə solur.
Fəqət, nəğmələrimin axınında
günbəzlər işıq saçır
və köçəriyə mədh,
səna bu aydınlıqlar olur...

**2.**

 ...və heç vaxt dan yeri
belə təmiz şəfəq saçmadı

Başım qollarımın arasında
əllərimi barmaqlarımla toxuyuram
- insanın  fitnəsi, fəsadı nədi? -
hələ dan yeri ağarana qalıb,
və beləcə dayanıb  oxuyuram...

Ah, coşgun bir dalğanın
şanasına qalxmışam.
Və sənə söyləyirəm
biz nə qədər oxşarıq və
eləcə bir tayıq,
biz göyün üzündəki
ulduzlarıq və ayıq...

Amma taxt -tac yiyəsi
çar və onun ətrafı
tənəsi ölüm kimi
ölümə bənzər rəhmi.
Fikrimdə şahin kimi
buludlara yüksəldim...

Və belə bir gecəni
qızıl-qırmızı Kremlin üstündə
özümə yer salıb uzandım.
Daha çox doğmalarımı üzdüm,
mən bu şıltaq və
dəcəl nəgmə mlə yandım...

Ah, mən nə bəxtəvərəm,
heç kim ürəyini sənə belə açmadı
və heç vaxt dan yeri belə
şəfəq saçmadı -
özümü sənə verib yoxsul kimi
dönürəm,
eh, mənim sözüm,
fikrim dərindi, dumanlıdı...
Nəfəsim də daralır -
burda necə də çoxu ürəyi qara,
kinli, əlləri də qanlıdı.
Bax, mənə nəsib oldu,
sənə ilham verən bu əyaləti
ilk dəfə öz adıyla çağırmaq...

**3.**

...və bu kəndin göylərində
 xaçlar gicitkan kimi

Daha bir böyük uçuş -
gözümə yuxu getmir.
Ey, əzizim, gözəl can!
Bir sərçə yüngüllüyü
külü göyə sovrulan!

Axı, sən nə oxudun
o dumanlı günlərdən?
Nə qədər köks ötürdün
və sonda əriyən sən...

İnsanınkı deyildi
sənin bu sakitliyin.
Mələkdən və qartaldan
səndə nələrsə vardı...

Sanki heç eşitməyib
doyunca dinləməyib
oxunan nəğmələri
bu iblis xasiyyətli...
Röyasında hər gecə
cənnət bağını gəzir
bu kinli, küdurətli...

Bu dünya bizim deyil,
nə də saraylar bizlik...
Xatırladığı yoxdu
yaddaşı çilik-çilik,
süpürgə çəkən yoxdu
burdaki yaltaqlara...
Bu kəndin göylərində
xaçlar gicitkan kimi
bax, rəngi, boyası da
qıpqırmızı qan kimi...

**4.**

 ...və şirmayı təsbeh kimi
o, Sənin ovcundadı

Körpənin adı - Levdi,
Anasınınkı - Anna .
Onun adında -  hiddət,
ananınkı - sakitlik ...
Saçı qızılı, sarı -
başı zanbaqlar kimi
bu balaca - paşadı
sən boya, qamətə bax!
Allah, ona qanad ver
gözü mirvari gəzən -
 anasını sevindir...
Allah, onları qoru
bəd duadan, nəzərdən...
Şah oğlu xəyalpərvər,
başqalarına baxma...
Bu, sarı şir balası
 gözü dəniz mavisi
üsyan var qismətində!
Cənubda  və şimalda
okean sularında
 mirvarilər incisi,
şirmayı təsbeh kimi
o, Sənin ovcundadı!

**5.**

...və qaraçı qızının
şan-şöhrət haqqında yalanı

Nə qədər dost, çığırdaş var,
sən heç kimə bənzəmirsən!
Gənc kimidir bu şəfqətlə -
qürur, müsibət və bəla...

Xatırlayırsanmı heç
cənub küləyi azğınlıq edən o günü,
nərə çəkən Xəzəri -
və ağzında qızılgülün qanadcığı...

Qaraçı qızının
çərçivəsi kəsik daşı sənə
necə verməyini
və qaraçı qızının
şan-şöhrət haqqında sənə yalanını...

Və  yelkənlərin ətəyində
bir hündür - yeniyetməni
mavi köynəkdə,
dənizin şiddətin, qasırğanın harayın
və yaralı ilham pərisin...

**6.**

 ...və mən o, şam ağacına
 qədər gəzinim

Geridə qalmğı sevmədin
Mən - məhbus.
Sən - mühafizə əsğəri.
Tale eyni, bir-birinə bənzər.
Və oxşar boş söhbət bir bizə verilən.
Və xasiyyətcə sakitəm, çox doğru,
və aydın gözlərim var, o da doğru!
Mühafizə, azadlığa burax məni
və mən o,
şam ağacına qədər gəzinim!

**7.**

 ...və ehtiraslı səslər eşidirəm
 biri inadla susmaqda

Sən, sökülən örtüyüsən -
nənni, beşik və cənazə arabalarının,
qeyzli küləklərin,
çovğunu göndərənin,
qızğın əhvalın, həyəcanın,
savaşın tərəfdarısan,
və ruhani fəlsəfənin bağlı kitabısan.

Mən ulayan tufanları dinlədim
və boynunda halqası şirləri, səndə!

Ehtiraslı səslər eşidirəm -
və biri inadla susmaqda.
Qırmızı yelkənlər görürəm
və biri aralarında qara.

Okeanamı çıxdın
yaxan, köksün belə açıq -
sinəni günəşə sən tutan kimi
mən də ölüm hökmü verən
hakimi gözləyirəm...

**8.**

...və ormanların içində
 qırmanclanan Məryəm

Bazar hay-küy içində
tüstülənir havaya çörəkçixana parı,
mənsə xatırlayıram, darüzlü
və dodağı al qırmızı
küçə müğənnisini...

Tünd və güllü yaylıqda
 lütfükar görünüşdə,
sən izdiham içində
ibadətkar qadıntək
kilsənin önündəsən...

Dua et, mənim üçün
Inadla və davakar -
bir o qədər kədərli
sənə göstərəcəklər mənim tənhalığımı
və ormanların içində
qırmanclanan Məryəmi...

**9.**

...və sarı sünbül çöllərinin ortasında
səssiz-səmirsiz səcdə

Gözəl şair Annaya -
və günahını yumağa
hazır bütün Rusiyaya -
külək apar bu səsimi,
bu, mənim ağır ah-naləmi...

Söylə, oyanışı qızıl-qırmızı üfüqlərə
ağrıdan qaralan gözlərim haqda
və sarı sünbül çöllərinin ortasında
səssiz-səmirsiz səcdəmi...

Suları yaşıl meşə bulaqlarına
söylə, elə bu gün gecə
nə təhər sənə göz qoydum
və kimin surəti göründü sənə
bu açıq-aşkarda...

Adsız-filansız
şimşəktək yüksələn
yenidən doğulansan
çatdır sevgimi mənim
natiq və xətib Annaya
və bütün Rusiyaya...

**10.**

...və bütün ikonalar
 sənin gözlərinlə baxır mənə

Bir incə sarı simdə,
dalğaların üstündə
və bugünkü o bir səs - müqəddəs!
Sanki minlərin səsi
və karvan yolu, zınqırovlar -
müqəddəs,
elə həmin o səslə Allahım
demirlərmi...

Dayanıb dinləyirəm,
sanki sünbül döyürəm
bu səsin içində
göy üzünün altında nə xoşdu qalmaq,
sənin əllərinə toxunmaq
və sənin xəyalına dalmaq...

Hamı üçün bir qadınsan,
sənin yorğun gəlişinlə şərəflənən -
mənim üçün ilhamın mələyi
və bütün ikonalar
sənin gözlərinlə baxır mənə
sənə gecələr tənha səcdə edirəm
köksümün altında illərin diləyi...

**11.**

...və məsum qızcığaztək
geri dönmək

Sən məni günəşin üzünə bir tut,
sevda, sevgi dolu məktub sənə var!
Küləklər qanadım, sən bəyaz bulud
qapı aç qədərə,  yazıya  nə var!

Artıq sevilsən bir çocuq kimi
dilin topux vura və söyləyəsən,
aşağı dikəsən baxışlarını -
ağlayıb, hıçqırıb sakitləşəsən
alışıb ocaqtək sonra sönəsən -
de, kimə deyirsən, aşiq kimə sən!
Xatırla, bir vaxtlar çocuqluğunda
çox tez bağışlana bildiyin kimi
məsum qızcığaztək ğeri dönəsən...

**Çevirəni: Şükür ŞƏNOL**